# NƏSİROV YALÇIN CANHƏSƏN OĞLU



Yalçın Nəsirov 23 yanvar 1976-cı ildə Astara rayonunun Sərək kəndində dünyaya göz açmışdır. 1982-ci ildə birinci sinifə getmiş, 1992-ci ildə onuncu sinfi bitirmişdir. Orta təhsilini başa vurduqdan sonra rayonlarında sürücü peşəsinə yiyələnmişdir. 1994-cü il aprelin 19-da Astara rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. O, Daxili Qoşunların tərkibində Lökbatanda 2 ay hərbi təlim keçir, sonra xidmətini Tərtər və Şamaxı rayonlarında davam etdirir. 1995-ci ilin məlum mart hadisələri başladı. Silahlı dəstə dövlətçiliyimizə və müstəqilliyimizə zərbə endirmək məqsədilə dövlət çevrilişinə cəhd etdi. Silahı yerə qoymaq üçün bir neçə dəfə xəbərdarlıq edilsə də, bu, heç bir nəticə vermədi. Ordu güc göstərmək məcburiyyətində qaldı. Müstəqilliyimizin qorunub saxlanmasında Yalçın Nəsirov da Milli Ordunun əsgəri kimi öz vətənpərvərlik borcunu yerinə yetirirdi. O, martın 13-dən 17-nə kimi keçirilən bütün əməliyyatlarda iştirak etmiş, 17-dən 18-nə keçən gecə ağır yaralanmışdı. Çoxlu qan itirmişdi. Onu təcili olaraq Sabunçu rayon xəstəxanasına çatdırdılar. Lakin artıq gec idi... Həkimlər onu həyata qaytara bilmədi. Martın 24-də o, gözlərini əbədi olaraq yumdu. Sərək kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Nəsirov Yalçın Canhəsən oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Astara rayonu Sərək kənd orta məktəbi 1995-ci ildən onun adını daşıyır. Astara rayonundakı “Qəhrəmanlar bağı”nda büstü qoyulmuşdur.